

# Şəhla Qarayeva Təqaüd Proqramı

**İllik Hesabat 2018 - 2019**

Email ünvanı: [mail@sgsp.info]
Veb sayt: [https://sgsp.info/]

SGSP
Shahla Garayeva Scholarship Program

# XÜLASƏ

Proqram haqqında ____ 4
Crowdfunding kampaniyası ____ 5
Ərizələrin qəbulu mərhələsi ____ 6
Seçim prosesi ____ 8
İlkin baxış ____ 8
Müsahibə ____ 8
İanəçilərin qiymətləndirməsi ____ 8
İanəçilərimiz ____ 9
Maliyyə hesabatı ____ 10
ŞQTP Təqaüdçüləri * ____ 11

# PROQRAM HAQQINDA

Şəhla Qarayeva Təqaüd Proqramı (ŞQTP) Azərbaycandan olan az təminatlı və təhsilə çıxışı məhdud olan qızların təhsil imkanlarının genişləndirilməsi üçün yaradılıb. Azərbaycanda qızların təhsili ilə bağlı kifayət qədər irəliləmiş hüquqi bazanın olmasına baxmayaraq, qadınların təhsilə çıxışında maneələr mövcuddur. BMT İnkişaf Proqramının (2007) hesabatına əsasən, gender stereotipləri, erkən nigah eləcə də qadınların cəmiyyətin aparıcı vəzifələrində az təmsil olunması bu maneələrin sadəcə bir neçə nümunəsidir. Azərbaycanda təhsil imkanlarına gəldikdə, maliyyə çətinliyinin ümumi bir problem olması ilə yanaşı, qızlar daha çox fiziki və verbal təzyiqə, eləcə də gender stereotipləri səbəbindən erkən nigahlara məruz qala bilərlər.

ŞQTP həyatını təhsilə həsr etmiş, məşhur pedaqoq və tələbələrinin dostu olan Dr. Şəhla Qarayevanın (1962-2018) adını daşıyır. Şəhla müəllimə 2018-ci ilin aprel ayında xərçənglə uzun mübarizədən sonra öz həyatını itirdi. Bu proqram vasitəsilə onun tələbələri, yaxınları, eləcə də Şəhla müəlliməni uzaqdan-yaxından tanımış hər bir şəxs onun əziz xatirəsini yad edir və Azərbaycanda güclü qadınlardan ibarət gələcək nəslin yetişməsinə kömək edir. ŞQTP nəticəsində toplanılan məbləğ təhsil xərclərinin qarşılanması məqsədilə açıq müsabiqə yolu ilə seçilmiş namizədlərə təltif olunur.



# CROWDFUNDING KAMPANİYASI

## Oktyabr - Dekabr 2018

Crowdfunding Kampaniyası çərçivəsində 87 ianə aldıq; bunlardan 5-i köçürmə əməliyyatı zamanı baş verən texniki problemlər səbəbindən uğursuz oldu.




İki ay ərzində davam edən kampaniya Azərbaycanda gənc qız tələbələrin təhsilini maliyyələşdirmək üçün ümumilikdə 3621.44 ABŞ dolları toplamağa imkan verdi. Aşağıdakı cədvəldə fərdi dəstəkçilərin bağışladığı məbləğə əsasən ianələrin miqdarı ilə tanış ola bilərsiniz:



# ƏRİZƏLƏRİN QƏBULU MƏRHƏLƏSİ

## Yanvar - Aprel 2019

Azərbaycanın müxtəlif bölgələrindən və xaricdən toplam 100 nəfər tələbə təqaüd proqramına müraciət etdi:






Ərizəçilər universitet, orta məktəb və kollec kimi müxtəlif təhsil müəssisələrini təmsil edirdilər:




Tələbələrin təqaüd proqramına müraciət etmək məqsədi fərdi ehtiyacdan asılı olaraq dəyişir. Aşağıdakı cədvəldə göstərildiyi kimi, qızların əksəriyyəti ya mövcud təhsillərini davam etdirmək ya da xaricdə təhsil almaq üçün müraciət etmişlər:



# SEÇİM PROSESİ

May - İyun 2019

Təqaüdçülərin seçim prosesi üç mərhələdə aparıldı: 1) İlkin baxış; 2) İanəçilərin qiymətləndirməsi; 3) Müsahibə.

**İlkin baxış.** Bu mərhələdə SGSP layihə qrupu ərizələri üç kateqoriyaya bölməklə nəzərdən keçirdi: Yüksək ehtiyac, orta ehtiyac, az ehtiyac. Ehtiyacın səviyyəsini müəyyənləşdirmək üçün ərizəçinin social və iqtisadi göstəriciləri istifadə olundu. Bütün ərizələrə ilkin baxışdan sonra ŞQTP layihə qrupu ikinci mərhələyə keçən *30 ərizəçini* müəyyənləşdirdi.

**İanəçilərin qiymətləndirməsi.** ŞQTP ianəçilərindən iki nəfər təqaüdçülərin seçim prosesində iştirak etmək istədiklərini bildirdilər. Bu mərhələdə ianəçilər ərizələrdəki qısa cavab esselərinə baxış keçirib bu iki meyar əsasında: *ən yüksək ehtiyac və b) gələcək haqqında məqsədlərin aydınlığı* – ərizəçilər arasından ən layiqli namizədlərin seçilməsində iştirak etdilər. İanəçilərin qiymətləndirməsi nəticəsində ŞQTP layihə qrupu, müsahibə mərhələsinə keçən 13 finalisti müəyyənləşdirdi.



© Allisson Kwesell/World Bank

**Müsahibə.** ŞQTP ehtiyaca əsaslanan təqaüd proqramı olduğundan, layihə qrupu təqaüd fondunun təbələlərin ehtiyaclarına nə qədər uyğun olduğunu araşdırmaq məqsədi ilə fərdi telefon və Skype vasitəsilə müsahibələr apardı. Bu mərhələdə ŞQTP layihə qrupunun məqsədi hər bir finalist ilə daha yaxından tanış olmaq və ərizə formasında olmayan sualları verməkdən ibarət idi. Diqqətli müzakirələr əsasında üç günlük müsahibə prosesinin sonunda **6 təqaüdçü** seçildi.

# İANƏÇİLƏRİMİZ

VÜSAL SƏLİMLİ
CEYHUN B.
ÜMMAN QULİYEV
FAİQ ABBASOV
RÜFƏT KƏRİMOV
RƏQSANƏ KƏRİMOVA
MƏHƏMMƏD MEHDİYEV
ÇINARƏ ƏHMƏDOVA
TƏBRIZ ƏLİYEV
ŞAHNAZ KAMALOVA
MƏHAMMƏD İBRAHIMOV
ŞƏFƏQ QARAYEVA
ZƏRİFƏ MƏMMƏDLİ
HEATHER TURNER
AYSİMA ƏHMƏDLİ
ASİM ƏZİZLİ
TALAT KƏLƏYEV
PƏRVİZ ƏLİYEV
RIKKE SLOTH BJERREGAARD
AZƏR KƏRİMOV
LEYLA QURBANOVA
RƏŞAD HÜSEYNOV
RICCARDO MADDALOZZO
FƏRİD CƏFƏROV
ÜLKƏR İMAMVERDİ
CƏVAHİR ƏHMƏDOVA
LEYLA SEYİDZADƏ
NƏRGİZ QULİEVA
ÜLVİYYƏ MEHRALIYEVA
SAMİRƏ HACIYEVA

SHU-YI HSU
YUSİF HÜSEYNOV
ARZU CƏFƏRLİ
BƏHRUZ QULİYEV
SƏNCƏR ƏHMƏDOV
CAVİD HÜSEYNOV
NEMƏT QULİYEV
ETİBAR HƏSƏNOV
MAQSUD M
ANAR KƏRİMLİ
SƏBİNƏ QULİYEV
CEYHUN B.
CAVAŞİR MAMMADLİ
KÖNÜL QULİYEVA
ELENA SPIRKINA
ARZU İMANLI
ZÜMRÜD CƏLİLOVA
ZƏHRA MURAD
NƏRGİZ QULİYEVA
ZİYA BAĞIRZADƏ
FƏRİDƏ BUYURAN
REAL HACIYEV
CORBIN CAMPBELL
RƏŞAD PAŞAZADƏ
QİYAS HÜSEYN
YOSHITO KATANODA
AYNUR CƏFƏR
ŞƏB NƏCƏFOV
AQŞİN BƏKİRZADƏ

# MALİYYƏ HESABATI

| GƏLİR | | |
|---|---|---|
| İanələr | $ | 3,621.44 |
| CƏMİ GƏLİR | $ | 3,621.44 |

| XƏRCLƏR | | |
|---|---|---|
| Cari işlərə dair vəsait | $ | 142.51 |
| Proqram xidmətləri | $ | 3,258.56 |
| CƏMİ XƏRCLƏR | $ | 3,401.07 |
| ÜMUMİ MƏNFƏƏT (ZƏRƏR) | $ | 220.37 |

# ŞQTP TƏQAÜDÇÜLƏRİ *[1]



Ad: Cəlalə Abdullayeva
Şəhər/Rayon: Bakı şəhəri, Binəqədi rayonu
Yaş: 22
Ali məktəb: Xəzər Universiteti
Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir? Təhsilimi Xəzər Universitetinin filologiya fakultəsi İngilis dili və ədəbiyyatı bölümü üzrə alıram. ŞQTP sayəsində bu ildən etibarən yarımçıq qalan təhsilimi davam etdirə biləcəm. Naxçıvan şəhərində doğulsam da, orta təhsilimi Bakı şəhərində başa vurmuşam və Xəzər Universitetinə qəbul olduqdan sonra məqsədim məhz humanitar sahədə karyera qurmaqdır. Gələcəkdə ədəbiyyat üzrə ixtisaslaşmaq istəyirəm, çünki humanitar elmlər üzrə özümü daha qabiliyyətli görürəm. Bakalavr təhsilimdən sonra bu istiqamətdə magistr təhsili almağı düşünürəm. Bu yolla özümü iş həyatı üçün hazırlayıb, təhsil müəssisələrində filoloq olaraq çalışmağı planlayıram.



Ad: Röya Abdullayeva
Şəhər/Rayon: Bakı şəhəri, Qaradağ rayonu
Yaş: 20
Ali məktəb: Bakı Dövlət Universiteti
Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir? Hal-hazırda Bakı Dövlət Universitetində Coğrafiya fakültəsində bakalavr təhsilimin yarısını artıq başa vurmuş sayılram. Təhsilimi müvəffəqiyyətlə bitirdikdən sonra bu sahədə ixtisaslaşmaq, magistratura ilə davam etməyi planlayıram. Bu sahədə gələcəkdə güclü mütəxəssis olacağıma və gələcək nəsillərə də öz sevgimi ötürəcəyimə bütün qəlbimlə inanıram. Məqsədim ixtisasıma dərindən yiyələnmək, ArcGis, MapInfo və s. kimi proqramları öyrənib xəritəçəkmə sahəsində daha dərin biliklərə sahib olmaqdır. Həmçinin, Azərbaycan dilində elmi platformaların azlıq təşkil etməsi səbəbindən öz dilimizdə kifayət qədər baza tapmaq xeyli çətindir. ŞQTP vasitəsilə təhsilimi maneəsiz davam etdirib bu cür problemlərin aradan qaldırılması istiqamətində çalışacam.

[1]*Qeyd: Seçim mərhələsinin nəticəsində altı təqaüdçü seçilsə də, iki təqaüdçü şəxsi səbəblərdən son məqamda proqramda iştirak edə bilməmişdir.



Ad: Jalə Məmmədova
Şəhər/Rayon: Tovuz rayonu, Əhmədabad kəndi
Yaş: 18
Ali məktəb: Bakı Dövlət Universiteti, Qazax filialı
Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir? Təhsil almaqda əsas məqsədim gələcəyimin heç kəsdən asılı olmadan müstəqil şəkildə qura bilməkdir. Bu yolla həm də özüm kimi imkansız ailələrin övladlarının təhsil almalarına yardımçı olmaq istəyirəm. Orta təhsilimi Əhmədabad kəndində başa vursam da, ailəmdə baş verən faciə nəticəsində atamın qollarını itirməsi səbəbi ilə əmim qızının və ailəsinin təkidi ilə Bakı şəhər Qobustan qəsəbəsinə, əmimqızının ailəsinə köçdüm. Bakı Dövlət Universitetinin Qaza filialında ödənişli əsaslarla fizika müəllimi ixtisasına qəbul olsam da, maddi çətinliklər səbəbindən problemlərlə üzləşməli oldum. ŞQTP sayəsində təhsilimi maneəsiz davam etdirə biləcəm.



Ad: Ləman Mövlanova
Şəhər/Rayon: Bakı şəhəri, Xətai rayonu
Yaş: 19
Ali məktəb: Azərbaycan Dillər Universiteti
Təhsil planlarınıza nail olmaqda ŞQTP sizə necə kömək edir? Gələcəklə bağlı planım mükəmməl təhsil almaqdır. Məqsədim təkcə özümün mükəmməl təhsil alması deyil, həm də gələcək nəslə mükəmməl təhsil verməkdir. Tək valideyn tərəfindən böyüdülməyim bu məqsədə çatmağımda xeyli maddi çətinliklər yaradıb. Lakin təhsil karyeramda ŞQTP kimi qurumların mövcud olması mənə cəsarət verir və mən də bir gün bu proqramın mənə kömək etdiyi şəkildə hər hansı tələbəyə kömək olmaq istəyirəm. Ən böyük arzum və məqsədim bir gün ali məktəbdə dərs deyə bilməkdi. ŞQTP vasitəsilə mən özümü bu arzuya bir addım daha yaxın hiss edirəm.

*Daha parlaq gələcək naminə qızlara dəstək olaq...*